**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№353/4** **08 fevral 2023-cü il**

**2022-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış və həmin auditlərin keyfiyyətinin artırılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.6-cı bəndinə uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimov tərəfindən hazırlanmış “2022-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış”ı müzakirə edərək səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin keyfiyyətinin artırılması, auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətləri göstərilərkən ölkə qanunvericiliyinin, Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorların Müstəqillik Qaydalarının tələblərinə əməl edilməsi, auditin səmərəliliyinin təmin edilməsi, habelə auditor təşkilatlarında və sərbəst auditorlarda işin düzgün və effektiv təşkili və həyata keçirilməsi, bu istiqamətdə vahid yanaşmanın tətbiq olunması, auditin keyfiyyətinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq təşkil edilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə İdarəsi ilə 2010-cu il 05 may tarixində imzalanmış “Korrupsiya ilə mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu”nu və Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi cənab Nazim Rəcəbovun Azərbaycan Respublikasının Auditorlar Palatasına ünvanlandığı 2022-ci il 29 dekabr tarixli məktubunda qeyd edilən təklifləri nəzərə alaraq Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2022-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış” nəzərə alınsın (əlavə olunur).

2. 2022-ci ildə səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditləri vaxtında və keyfiyyətlə yerinə yetirən adları aşağıda qeyd edilən auditorlara təşəkkür elan edilsin:

1. Abdurahmanov Orxan Əlisəfa oğlu – “Grow Audit and Consulting” MMC-nin direktor-auditoru;
2. Alxaszadə Nigar Taleh qızı – sərbəst auditor;
3. Əkbərov Elçin Ehtibar oğlu – “Consulting Group” MMC-nin direktor-auditoru;
4. Əliyev Azər Hüseyn oğlu – sərbəst auditor;
5. Hüseynov Aydın Həsən oğlu – sərbəst auditor;
6. Hüseynov Fərhəddin Əbülqasım oğlu – “LŞ Audit” MMC-nin direktor-auditoru;

7. İsmayılov Elxan Əsgər oğlu – “ELVİ AUDİT” MMC-nin direktor-auditoru;
8. Kazımov Elnur Şahin oğlu – “AZFİNANCE AND CONSULTİNG" MMC-nin direktor-auditoru;
9. Quliyev Fərid Nazim oğlu – “Grandis Audit” MMC-nin direktor-auditoru;
10. Qurbanov Elçin İbad oğlu – “VXA – Audit” MMC-nin direktor-auditoru;
11. Soltanov Qulu Mehbalı oğlu – sərbəst auditor;
12. Talıbov Vidadi Musa oğlu – sərbəst auditor.

3. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2022-ci ildə səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər üzrə icrası davam etdirilən və gecikdirilən işlərin 2023-cü ilin I rübündə başa çatdırılması təmin edilsin.

4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, 2022-ci il ərzində üzrsüz səbəblərdən səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak etməkdən imtina edən auditorların adları “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısı”ndan çıxarılsın.

5. Auditorlar Palatasının rəhbərliyinə həvalə edilsin ki, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin keyfiyyətinin artırılması sahəsində təklif və tövsiyələrin hazırlanması məqsədilə işçi qrupu yaradılsın və tərkibi təsdiq edilsin.

6. İşçi qrupuna tapşırılsın ki, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin keyfiyyətinin artırılması məqsədilə beynəlxalq təcrübə və yerli qanunvericiliyin tələbləri nəzərə alınmaqla üç ay müddətində təklif və tövsiyələrini hazırlayıb təqdim etsinlər.

7. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, auditor təşkilatları və sərbəst auditorlar üçün “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər” mövzusunda 2023-cü ilin aprel ayında seminar keçirilməsi təmin edilsin.

8. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər” mövzusunun 2023-cü il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramına daxil olunması təmin edilsin.

9. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**